❒ ***Qarabağın baş qapısı sayılan Ağdamın işğalından 26 il ötür. Müstəqilliyin ilk illərində ölkədə hökm sürən daxili çəkişmələrin, hakimiyyət uğrunda mübarizənin, naşı siyasi qüvvələrin düşmənin təcavüzə məruz qoyduğu ərazilərimizin etibarlı müdafiəsini yara bilməməsinin qurbanı olmuş Ağdamın işğalı Qarabağ müharibəsinin ən acı və ağrılı səhifələrindən biridir.***

# Ağdamın işğalından 26 il ötür



1993-cü il iyulun 23-də Ermənistan Silahlı Qüvvələri Qarabağın mərkəzində yerləşən Ağdamın böyük hissəsini asanlıqla işğal etdi. Ərazisi 1094 kvadratkilometr olan rayonun 846,8 kvadratkilometrlik hissəsi--77,4 faizi, Ağdam şəhəri və 1214 kəndindən 80-i ermənilərin əlinə keçdi. Rayondakı 38 kolxoz-sovxozun 26-sı, 129 səhiyyə obyektinin 105-i, 108 məktəbin 74-ü, 271 mədəniyyət ocağının 199-u, 24 tikinti təşkilatı, 67 idarə-müəssisə, 17 məscidin 14-ü işğal altında qaldı. Bu işğal rayona 13 milyard 135 milyon ABŞ dolları məbləğində ziyan vurub.

Ağdam şəhəri, onun qədim keçmişin şahidi olan çox sayda tarixi abidələri, mədəniyyət, memarlıq nümunələri, keçmiş SSRİ-də 1-ci, dünyada 2-ci olan Çörək muzeyi düşmən tərəfindən vəhşicəsinə dağıdılıb. Ağdam düşmənlə döyüşlərdə 6 min şəhid verib, onlardan 16-sı Milli Qəhrəmandır. İşğal nəticəsində rayonun 160 min nəfər əhalisindən 143 min nəfəri öz ölkəsində məcburi köçkünə çevrilib.

Məlumat- sorğu qaynaqlarında göstərilir ki, Ağdam rayonu inzibati vahid kimi 1930-cu ildə yaradılıb. Ağdam rayonu Azərbaycanın qədim, füsunkar təbiətli torpağı olan Qarabağın mərkəzində Qarabağ dağ silsiləsinin şimal-şərq ətəklərində, Kür-Araz ovalığının qərbində yerləşir. Gözəl Qarabağın ürəyi sayılan Ağdamın qədim tarixi abidələri minillik keşməkeşli illərdən keçərək bu günə qədər gəlib çatmışdır. "Ağdam" sözü qədim türk dilində "kiçik qala" deməkdir. Uzaq keçmişdə bu ərazidə yaşamış türkdilli qəbilələr özlərini müdafiə etmək üçün əsasən kiçik qalalar tikirdilər. Zaman keçdikcə bu adın mənası dəyişib. XVIII əsrin birinci yarısında Qarabağ xanlığının əsasını qoyan Pənahəli xan bu şəhərdə özü üçün ağ daşdan imarət tikdirib. Həmin tikili uzaqdan diqqəti cəlb edən bəyaz görkəmi ilə gəlib-gedənlərə bələdçilik edib. Bu mənada "ağdam" işıqlı, ağ ev deməkdir.

Orta əsrlərin saysız-hesabsız müharibə və çəkişmələri rayon ərazisində insan əli ilə yaradılan hər şeyi dəfələrlə yer üzündən silsə də, əhali doğma torpağından didərgin salınsa da, bu yerin insanları ulu yurda qayıdıb həyat estafetini davam etdirmişlər. Sonuncu dəfə Nadir şahın qəzəbinə düçar olub İran səhralarına sürgün edilən əhali "Aləm cənnətə dönsə, yaddan çıxmaz Qarabağ" harayında toparlanaraq geri dönmüş, Ağdam ərazisində yeni və güclü Qarabağ xanlığını ucaltmışlar.

Rus işğalından sonra daimi yaşayış yeri olaraq adı 1828-ci ildə rəsmiləşdirilən Ağdam Şuşa qəzasının Aran Qarabağda ən böyük məntəqəsi kimi sürətlə böyümüşdür. Dağlıq Qarabağda erməni muxtariyyəti yaradılandan sonra Şuşanın itirilməkdə olan regional milli- mədəni mərkəz rolu tədricən Ağdama keçmişdir. Rayonun işğalından əvvəl burada 54 tibb müəssisəsi, 79 mədəniyyət ocağı fəaliyyət göstərirdi.

Xalqımıza məxsus "Ağ günə çıxasan", "günün ağ olsun" kimi alqışlar Ağdamda həmişə xüsusi ahəng və iltifatla səslənmişdir. Ərazidəki nəhəng Şahbulaq əhəng daşı yatağından kəsilən ağappaq mişar daşından salınmış yaraşıqlı Ağdam şəhəri, abad və böyük kənd- qəsəbələr əsrlər boyu mövcud olmuş "qara dam"ların yerində yurd sevgili insanların dilində-ağzında yaşayan "ağ gün" arzularının timsalı kimi nəhəng bir "ağ dam" mənzərəsi yaratmışdı. Ötən əsrin bir- birindən uğurlu gələn quruculuq illəri zəhmətlə torpağın ülfətindən bolluq yaradan ağdamlıları bu "ağ dam"larda ağ günlərə qovuşdurmuşdu.

Sonuncu sovet rəhbər Qorbaçovun bədnam "yenidənqurması" dalğalarında erməni separatçılığı daxili və xarici havadarların fitnəsi ilə baş qaldıranda Ağdamın ağ günlərdən soraq verən ağ görkəmli yaşayış məntəqələrinin də başının üstünü qara buludlar aldı. Qəzəblənib xain və namərd ermənilərin üstünə sel kimi, yel kimi gedən ağdamlıların qarşısı odlu qurşunla kəsiləndən sonra geri dönüb qeyrət silahına sarılan insanlar münaqişə kəskinləşib qanlı toqquşmalara keçənədək yalın əllə özlərini və Dağlıq Qarabağdan qovulan soydaşlarımızı qorudular.

Alovlanmış Qarabağ müharibəsində hamılıqla iştirak edən rayon əhalisi döyüşlərdə ölkə üzrə həlak olanların üçdə biri qədər— 6 min şəhid verdi. 14 ağdamlı Milli Qəhrəman adına layiq görüldü. Lakin ermənilərin arxasında dayanan xarici hərbi- siyasi dairələr və hakimiyyət davasından qaynaqlanan gözəgörünməz xəyanətlər serialı igid oğullarımızın hünərini heçə endirdikcə Ağdam da Şuşa, Laçın, Kəlbəcər kimi uduzduruldu.

Nəhayət, 1993-cü il iyulun 23-də respublikanın ən böyük region şəhərlərindən olan Ağdam və ətraf yaşayış məntəqələri düşmənin əlinə keçdi. Ağ günlərin nəhəng ağ göyərçininə bənzəyən Ağdam kürəyindən vuruldu, ağ sinəsi qana bələndi. Rayon ərazisinin üçdə iki hissəsinin üstünə qara pərdə çəkildi. Qara donlu, qara niyyətli yağı Ağdamın on minlərlə ağ evini yağmaladı, ağ donlu el- obalarımızı oda qalayıb qapqara xarabazara çevirdi...

Ağ günlərinin üstünə qara yağmurlar yağmış ağdamlıların əli həmin günlərdə xalqın tələb və hökmü ilə hakimiyyətə qayıdan ümummilli lider Heydər Əliyevin əlinə yetişəndən sonra yeni ağ günlərə dönüşün əsası qoyuldu. Qısa müddətdə rayon ərazisində etibarlı müdafiə səddi yaradıldı. Zəruri kommunikasiyalar bərpa edildi. Ev- eşiyindən perik düşmüş 100 minədək əhali hissə- hissə öz ev- eşiyinə qaytarıldı. Son illərdə Prezident İlham Əliyevin xoş məramı ilə rayon ərazisində müasir qəsəbələr salındı, ağır şəraitdə yaşayan on minlərlə ağdamlı məcburi köçkünün qara günlərinə son qoyuldu. Ağdamın yeni ağ günlərinə işıq salan ümid çırağı yandırıldı.

Dirçəldilən və inkişaf etdirilən təsərrüfatlarda indi əhali özünə lazım olandan da artıq məhsul hasilə gətirir. Cəbhəyanı bölgənin ağ evləri əvvəlkindən də yaraşıqlı və işıqlıdır. Rayonun yeni mərkəzi kimi qurulan, abadlaşdırılan və böyüyən Quzanlı qəsəbəsində yaradılan zəruri xidmətlər və rahatlıqlar adamların ağdamlı günlərinin kədər və həsrətinin üstünə məlhəm qoyur, yeni ağ günlərdən soraq verir. Quzanlı qəsəbəsinin yeni giriş qapısı, bir kilometrdən uzun yaraşıqlı xiyabanı ağdamlılar, haqlı olaraq, Ağdama qayıdışın "start meydançası" adlandırırlar.

Burada Ağdamın ağ günlərinin unudulmaz nişanəsi olan, vaxtilə hind- çin üslübunda ucaldılmış məşhur "Çay evi"nin oxşarının yaradılması isə düşmənə ciddi bir mesajdır: "Ağdama gedən yolun start meydançasında ucalan bu arzular- diləklər peyki Ali Baş Komandan İlham Əliyevin hücum düyməsini basması ilə uçub ağdamlıları Ağdama yetirəcək!"

İşğaldan sonra əksəriyyəti məcburi köçkünə çevrilmiş ağdamlılar respublikanın əksər şəhər və rayonlarına səpələnmişdi. Hazırda rayonda 100 minədək əhali yaşayır. Ağdamlıların yurda qayıdış missiyasının indiki vəziyyətə gətirilməsi yolunda ötən 26 ildə görülmüş irimiqyaslı işlər birmənalı olaraq ulu öndər Heydər Əliyevin və onun layiqli davamçısı Prezident İlham Əliyevin adı ilə bağlıdır. Ağdama boş əllə qayıtmaq mümkün olmadığından təsərrüfat, quruculuq, xidmət sahələrində nailiyyətlər nəinki ildən-ilə, həftədən-həftəyə, hətta gündən-günə artırılmışdır. Ölkəmiz ötən illərdə düşməni dinc yolla, inkişaf və tərəqqi ilə çox geridə qoymaqla məğlub vəziyyətinə gətirmişdir. Prezidentimiz İlham Əliyevin dediyi kimi, bir düyməni basmağımızla düşmənin daşı- daş üstündə qalmaz.

Cəbhə bölgəsində yerləşməsinə, ərazisinin üçdə ikisi işğal altında olmasına baxmayaraq Ağdamın sosial-iqtisadi inkişaf göstəriciləri ildən-ilə yaxşılaşır, ərazidə məskunlaşmış məcburi köçkünlərin problemləri ardıcıl həllini tapır, əhalinin gündəlik tələbatını ödəmək, humanitar sahələrin ahəngdar fəaliyyətini təmin etmək üçün zəruri tədbirlər, müxtəlif layihələr gerçəkləşdirilir.

Ağdam RİH-in başçısı Vaqif Həsənov son bir ildə rayonda sosial-iqtisadi inkişafın yekunları barədə məlumat verərək bildirdi ki, işğaldan ötən 26 ildə ümummilli lider Heydər Əliyevin, Prezident İlham Əliyevin müstəsna diqqət və qayğısı ilə həyata keçirilən ardıcıl tədbirlər, regional inkişaf, köçkünlərin problemlərinin həllinə yönəlmiş dövlət proqramları Ağdamın inkişafının ümumrespublika səviyyəsinə çatmasında önəmli rol oynamışdır. Ötən dövrdə dövlətin fəal dəstəyi ilə əldə olunmuş uğurlar bu gün mövcud imkanlardan geniş təşəbbüskarlıqla istifadə etməyə imkan yaratmışdır. Odur ki, indi rayonun ümumi idarəçiliyində problemin ardınca getmək deyil, onun qabaqlanması və yerli imkanlardan daha səmərəli istifadə etmək xəttinə üstünlük verilir.

Ağdam RİH-in rəhbərliyi ilə rayonun sosial-iqtisadi inkişaf göstəriciləri əksər sahələrdə illik proqnozları üstələmişdir. Son 1 ilin ən yaddaqalan hadisəsi isə ötən payızda dövlət başçısı İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın rayona səfəri, muğam yurdu Ağdama Heydər Əliyev Fondunun misilsiz hədiyyəsi olan Muğam mərkəzinin, "Azərxalça" ASC-nin Ağdam filialının və Qarabağ Atçılıq Kompleksinin, 29 min nəfər əhalini əhatə edən 1 qəsəbəni, 10 kəndi və 3 məcburi köçkün qəsəbəsini birləşdirən 25,3 kilometrlik Quzanlı-İmamqulubəyli-Orta Qərvənd-Xındırıstan avtomobil yolunun istifadəyə verilməsi şənliklərində iştirakları, xeyir-dualarını verməlari, rayon ictimaiyyətinin nümayəndələri ilə səmimi görüşləri olmuşdur.

Səfərdən sonra ölkə rəhbərinin sərəncamı ilə cəbhə xəttində düşmən hücumlarından ziyan çəkmiş evlərin bərpa olunması və Birinci Yüzbaşılı kənd tam orta məktəbinin tikintisi üçün vəsait ayrılmışdır ki, bu da cənab İlham Əliyevin ağdamlılara daha bir töhfəsi oldu.

Keçən mövsümdə taxılçılar 14 min hektardan 52 min tondan çox məhsul əldə etmiş, məhsuldarlıq 37,1 sentnerə çatdırılmışdır. Bu il də taxılçılar bol məhsul yetişdirmişlər. Ötən il 98,5 min ton tərəvəz, 5,9 min ton kartof, 20 min tondan artıq şəkər çuğunduru yetişdirilmişdir. Pambıqçılar 5,8 min tondan çox məhsul istehsal etsələr də, bu, rayonun imkanları baxımından aşağı göstəricidir. Odur ki, bu il əkinləri genişləndirərək 2 min 595 hektara çatdırmışıq. Hazırda tarlalarda becərmə işləri uğurla davam edir. Kümçülər də ötən ildəkindən çox barama əldə etmişlər.

Ağdamlılar Prezident İlham Əliyevin ətrafında daha sıx birləşərək bundan sonra da rayonumuzun sosial-iqtisadi inkişafı üçün bütün qüvvə və imkanları səfərbər edəcəklər.

Öyrəndik ki, son 1 il ərzində tikinti-quruculuq, bərpa-abadlıq işləri uğurla davam etdirilmiş, rayonun xəritəsinə xeyli yeni obyekt düşmüşdür. İmamqulubəyli kəndində tibb məntəqəsi istifadəyə verilmiş, Quzanlı qəsəbəsində Ruhi Əsəb Dispanseri əsaslı təmir edilmişdir. Əfətli-Hacıturalı-Həsənxanlı və Kolqışlaq-Mirəşəlli-Çıraqlı yolunun çəkilişi başa çatdırılmışdır. Quzanlı qəsəbəsində Boks və Taekvando məktəblərinin, Polis şöbəsinin, Prokurorluğun, Ağdam Elektrik Şəbəkəsinin yeni inzibati binaları tikilməkdədir.

Əhalinin həyat şəraitinin yaxşılaşdırılması, fasiləsiz elektrik enerjisi, təbii qaz və su ilə təminatının ödənilməsi, göstərilən xidmətlərin genişləndirilməsi və keyfiyyətinin yüksəldilməsi üçün bir sıra tədbirlər görülmüşdür. Artıq bütün məntəqələrdə mavi qaz yanır. Ötən il yeni avtomat telefon stansiyaları da istifadəyə verilmişdir. Ölkə başçısının sərəncamları ilə son 2 ildə 73 artezian quyusu qazılmışdır. Keçən il "Ağdam nəqliyyat" MMC yaradılmış və işğaldan sonra ilk dəfə bütün yaşayış məntəqələrinə marşrutlar açılmış, qonşu rayonlara marşrutlar 29-a çatmışdır.

Ağdamlılar 26 il əvvəl itirdikləri ağ günləri hissə-hissə geri qaytarmağa nail olmuşlar. Onlar bununla Ağdamlı günlərin astanasına gəlib çıxmışlar. Onlar möhkəm inanırlar ki, Prezidenti İlham Əliyevin yeritdiyi qətiyyətli siyasət Ağdamın işğal tarixçəsinə son qoyacaq, rayon ərazisində və kənarda məskunlaşmış məcburi köçkünlər doğma evlərinə qayıdacaqlar. Ağdamın bərpası, həqiqi və genişmiqyaslı inkişafı da bu qayıdışla start götürəcək.

***Tahir AYDINOĞLU,***
***"Xalq qəzeti"***